**Yeni növ qida məhsullarının qeydiyyatı üçün tələb olunan sənədlər**

Yeni növ qida məhsullarının qeydiyyatı ilə bağlı təqdim edilən ərizədə aşağıdakı məlumatlar qeyd edilməlidir:

1. “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsi ilə müəyyən edilmiş məlumatlar:

   1.1. ərizəçinin müraciət etdiyi inzibati orqanın adı;

   1.2. ərizəçi fiziki şəxs olduqda onun soyadı, adı, atasının adı və ünvanı, şəxsiyyətini təsdiq edən sənəd haqqında məlumatlar;

   1.3. ərizə hüquqi şəxsin adından verildikdə onun adı və hüquqi ünvanı;

   1.4. tələbin qısa məzmunu;

   1.5. ərizənin tərtib edildiyi tarix və ərizəçinin imzası;

   1.6. hüquqi şəxsin rəhbərinin və ya nümayəndəsinin imzası və hüquqi şəxsin möhürü;

   1.7. ərizəyə əlavə edilmiş sənədlərin siyahısı.

2. məhsulun adı;

3. məhsulun təsviri: molekulyar strukturu, mənbə olaraq əldə edildiyi orqanizmlər (mikroorqanizmlər, göbələklər, yosunlar, bitkilər, heyvanlar) və tərkibi.

4. Ərizəyə aşağıdakı sənədlər və məlumatlar əlavə edilir:

4.1. saflığı (konsentrasiyası) barədə məlumat;

4.2. istehsal və ya emal prosesinin təsviri və standartlaşdırma üzrə normativ sənəd (olduqda);

4.3. saxlanma şəraiti və yararlılıq müddəti;

4.4. digər ölkələrdə istifadəsinə dair məlumat;

4.5. istifadə şərtləri;

4.6. məhsulun tərkibi üzrə tədqiq (sınaq) protokolu və tədqiqin (sınağın) aparılması metodikası;

4.7. idxal edilən məhsula münasibətdə mənşə sertifikatı və səlahiyyətli dövlət qurumu tərəfindən verilmiş təhlükəsizliyini təsdiq edən sənəd;

4.8. məhsula dair aparılmış elmi tədqiqat və risk qiymətləndirilməsinin nəticələri (olduqda).